**Xuraman AĞAYEVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının dosent əvəzi, pedaqogika üzrə fəlsəfə doktoru***

# KİTABXANAÇI-BİBLİOQRAFIN PEŞƏ KOMPİTENSİYASI HAQQINDA

***Açar sözlər:*** *kitabxanaçı-biblioqraf peşəsi, kompitetntlik, bilik və baçarıq, kitabxanaçı kateqoriyası, biblioqrafkateqoriyası, sosial biliklər, peşə bilikləri*

***Keywords:*** *profession of librarian-bibliographer, the competence, knowledge and skills, category librarian, bibliographer category, social skills, job skills*

***Ключевые слова:*** *профессия библиотекарь-библиограф, компетенция, знания инавыки, категория библиотекарь, категория библиограф, социальные навыки, профессиональные навыки*

*Məqalədə kitabxanaçı-biblioqraf peşəsinin və kitabxanaçı-biblioqraf kadrlarını hazırlayan müəllimin peşə kompitensiyası, biblioqrafik fəaliyyətin subyekti olan peşəkar biblioqrafların sosial və peşə bilikləri və bacarıqları və kitabxanaçı-biblioqraf peşəsi qarşısınaqoyulan tələblər haqqında məlumat verilir.*

Giriş: Cəmiyyətin informasiyalaşdırılması kitabxanaların qarşısında yeni perspektivlər açır və yeni tələblər qoyur və bütün sahələrdə öz işini yaxşı bilən insanların çalışmasını tələb edir. Məsələn, kitabxanaçılıq-informasiya fakültəsində çalışan hər bir müəllim üçünkompetentlik ən mühüm peşə keyfiyyətidir. Onun qarşısında mühüm tələblər qoyulur. Müəllimin peşə keyfiyyəti onun bilik və bacarığı, təcrübədə qazandığı vərdişlərlə ölçülür. Yaşadığımız informasiyalı cəmiyyət müəllim peşəsinə və tədrisin təşkilinə yeni yanaşma tələb edir. Xüsusilə yeni informasiya texnologiyalarının tədrisprosesinə təsiri, interaktiv dərslərin, distant təhsilin təşkili müasir dövrümüzdə təlimdə yeni üsulların tətbiqini vacibedir. Bütün bunlar müasir müəllimdən savadlılıq, yaradıcı təfəkkür, insanlarla ünsiyyət qurmaq bacarığı, yeni texnologiyalardan, İKT- istifadə qabiliyyəti, heç olmazsa bir xarici dil bilmək, tələbələrə öyrətməkbacarığı, nəzəri biliyi təcrübi biliyə çevirmək qabiliyyəti, billiklərin inteqrasiyası, müəllim-tələbə-valideyn münasibətini qurmaq bacarığı, təlimlərdə, kurslarda iştirakı, fasiləsiz təhsil, öz üzərində işləmək, daim inkişaf etmək qabiliyyəti, nümunəvi dərslərin təşkili, yaradıcı hesabat, tələbələr arasında sorğu keçirmək, onların fikirlərini və təklifləriniöyrənmək, tələbələrin semestrdə əldə etdikləri nəticənin təhlili və nöqsanların aradan qaldırılması kimi məsələlər qoyur.

Müəllimin kompetentliyitələbənin kompetentli olmağına gətirib çıxarır. Bu cürbilik və bacarığı olan hər bir müəllim yaxşı savad verməklə kifayətlənmir. O həm də tələbələrdərəqəmsal texnologiyalarla işləmək və aldığı

informasiyanı biliyə cevirərək ondan daim istifadə etmək, öz biliklərinə əsaslanaraq öyrənməköyrətmək bacarığını inkişaf etdirir. Yaradıcı müəllim yaradıcı təlim prosesi quraraq bu prosesdə hər bir tələbənintəfəkkürünün, məntiqi düşünmə qabiliyyətinin inkifafına zəmin yaradır.

Əsas hissə. Bəs müəllimdən fərqli olaraq kitabxanaçı-biblioqrafın peşə kompitensiyası nədir? Hazırda respublikamızda kitabxana ictimaiyyətinibelə bir sual düşündürür. "Kitabxanaçının peşə kompetensiyasıolmalıdır, yoxsa olmamalıdır". Kitabxanaçı-biblioqrafın professional peşə kompitensiyası öz üzərindəişləməyi, elmi biliklərdən və İKT-dən bacarıqla istifadə etməyi tələb edir.

Kitabxanalaryeganə müəssisələrdir ki, ixtisas təhsili olmayanvə ya digər qeyri-ixtisas təhsilliinsanlarburayaişləməyə gəlirlər.Təəssüf ki, artıq uzun illərdir ki, biz kitabxanaçı peşənin tədricən ölməsiprosesini müşahidə edirik. Bizim kitabxanalarda kadr böhranı artıq reallığa çevrilmişdir. Azərbaycanda 8727 kitabxana mütəxəssisi çalışır. Onlardan 1579 nəfəri, 18.1%-i ali-ixtisas təhsilli, 1318 nəfəri, 15.1% ali-qeyri ixtisas təhsilli, 1767 nəfəri, 20.2% kitabxana üzrə orta ixtisas təhsilli, 1261 nəfəri, 14.4%-i orta qeyri ixtisas təhsilli, 2802 nəfəri, 32.2%-i ümumi orta təhsillidir (5, s.75). Azərbaycan kitabxanaçılarının 32.2%-nin orta təhsilli olması çox acınacaqlı bir rəqəmdir. Yalnız əməkdaşların beşdə biri peşəkarlardır. Belə vəziyyət təsərrüfatın heç bir sahəsində yoxdur.

Bizim cəmiyyətdə kitabxanaçı olmaq üçün kitabxanada işə düzəlmək kifayətdir. Təsəvvür edin ki, kitabxana, biblioqrafiya, informasiya işini bilməyən bir adamkitabxanada işləyir. Hansı keyfiyyətdən söhbət aşmaq olar? Biz özümüzpeşə təhsili olmayanəməkdaşları kitabxanaçı adlandıraraq peşənin nüfuzunu aşağı salırıq. Xaricdə yalnız ixtisas təhsili olan insanları kitabxanaçı adlandırırlar. Peşə ixtisas təhsili olmayanbaşqa əməkdaşlar-klerklərdir, texniki işçilərdir, köməkçilərdir, könüllülərdir. Ammakitabxanaçı deyillər. Təsəvvüt edin ki, bizim mütaliəmizə rəhbərlik edən insanlar hələ işin gedişində bir neçə iləbu peşənin sirrlərini öyrənəcəklər. Elmdə isə güzəşt olmur.

Bizim kitabxanalarıntəcrübəsindən nümunə gətirək.Təxminən son beş ildə bizdə ən yüksək ali kitabxanaçılıq və informasiyatəhsiliyləişə düzələn əməkdaşlara kadrlar şöbəsi 7-ci dərəcəni, orta məktəbi bitirib kitabxanada işləməyə gələn təhsilsiz əməkdaşlara isə 6-cı dərəcəni verir. Bu Rusiyada da belədir, bizdə də. Buna görə də ali təhsili olan və olmayan kitabxanaçıların maaşı arasında ciddi fərq yoxdur.150-180 manat arasındadır. Bizə elə gəlir ki, bu məsələyə yenidən baxmaq lazımdır. Bu ədalətsizlikaradan qaldırılmlıdır.

29 mart 2013-cü il Rusiya Federasiyasının Mədəniyyət Nazirliyində kitabxana sahəsində peşə standartlarının hazırlaması üzrəmüşavirə olmuşdur. Güman edilir ki, peşə standartlarının hazırlanması vəzifələrə, peşələrə və məşğuliyyətlərə aid qeyri müəyyənliyi aradan qaldıracaqdır. Müşavirədə bütün



"kitabxana-informasiya fəaliyyətinə" aid və kitabxanaçı peşəsinə aid ayrı və biblioqraf peşəsinə aid ayrı peşə standartlarının hazırlanması tapşırıldı. İlk öncə "Kitabxana-informasiya fəaliyyəti" haqqındavə sonra isə, peşəkar fəaliyyətin iki baza növü: kitabxanaçı kateqoriyasıüzrə və biblioqraf kateqoriyası üzrə peşə standartlarının hazırlanması müvafiq qurumlara tapşırıldı (7).

Kitabxana təhsili olmayan, kitabxana işindən xəbərsiz insanlar baza təhsili olmadığına görəkitabxana-biblioqrafiya proseslərionlara mənasız görünür. Onlar işi öyrənincə müəyyən zaman keçir və bu daişin səmərəliliyini aşağı salır, kitabxanalar haqqında mənfi münasibət formalaşır.

Professor Z.Əliyevin "Ümumi biblioqrafiyaşünaslıq" (2001) adlı dərs vəsaitində deyildiyi kimi: "İnsan fəaliyyətinin sisteminə daxil olan biblioqrafik fəaliyyət aşağıda qeyd olunan əsas komponentlərə malikdir: a)məqsəd; b)subyektlər; c)obyektlər; ç) proseslər; d) vasitələr; e) nəticələr. Bunların arasında məqsəd daha real xarakter dəyişir. O, gözlənilən nəticənin modeli, fəaliyyətin başlanması motivi kimi subyektin təfəkküründə mühüm yer tutur və formalaşır. Elə buna görə də biblioqrafik fəaliyyətdə məqsədlə subyekt birbirilə əlaqədə götürülüb şərh edilir ( 2, s.59).

Biblioqrafik fəaliyyətin başlıca komponent subyekt hesab olunur. Subyekt biblioqrafik fəaliyyətdəəsas hərəkətverici qüvvədir.Məqsədləri o müəyyənləşdirir, obyektlər seçir, prosesləri həyata keçirir, vasitələri işləyir, nəticələri yaradır və onlardan səmərəli istifadəni təşkil edir.

Biblioqraf-kitabxananın, digər informasiya müəssisəsinin, redaksiyanın, kitab ticarəti ilə məşğul olan təşkilatın bir əməkdaşı biblioqrafik xidməti peşəkar və sistemli şəkildə həyata keçirən alim və ya mütəxəssisdir (8). Biblioqraf peşəsi xüsusi ali təhsil tələb edir. Kitabxanada üç kateqoriyalı biblioqraf ştatı var. Baş biblioqraf, böyük biblioqraf, biblioqraf. Biblioqrafik xidmətin keyfiyyəti artdıqca ixtisaslı kadrlar daha da yüksək vəzifələrə gətirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, 2011-ci il oktyabr ayının 11-də Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti 162 saylı qərarı ilə "Azərbaycan Respublikasının şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərinin, müstəqil kitabxanaların, şəhər, qəsəbə və kənd kitabxana filiallarının, habelə şəhər, qəsəbə kütləvi, uşaq və gənclər kitabxanalarının nümunəvi strukturu və ştat vahidləri"ni təsdiq etmişdir. Buna müvafiq olaraq M.F.Axundov adına Milli Kitabxana "Mərkəzləşdirilmiş Kitabxana Sistemi işçilərinin vəzifə təlimatı"nı (6) hazırlayaraq nəşr etmişdir. Təlimat Mərkəzləşdirilmiş Kitabxana Sistemi işçilərinin vəzifələrinə uyğun işlərini günün tələbləri səviyyəsində qurmalarına kömək məqsədilə hazırlanmışdır. Bildiyimiz kimi hər bir müəssisədə işin təşkili, düzgün idarə

olunması və effektivliyi kadr təminatından, yəni işçi heyətindən asılıdır. İşçilərin fəaliyyətinin operativ və səmərəli təşkili üçün düzgün hazırlanmış vəzifə təlimatı böyük əhəmiyyət kəsb edir. Vəzifə təlimatı – müəsissə, şirkət və təşkilatın ştat cədvəlində nəzərdə tutulmuş vəzifəni yerinə yetirmək üçün təyin edilən şəxsin vəzifə və öhdəliklər dairəsini, məsuliyyətini əhatə edən təlimatdır. Hər bir idarədə vəzifə təlimatının dəqiq təşkil olunması hazırda aktual problemlərdəndir. Belə ki, vəzifə təlimatı elə qurulmalıdır ki, işçilər arasında iş bölgüsü düzgün aparılsın, onun həyata keçirilməsi effektli olsun (6). Nəzərə almaq lazımdır ki, vəzifə təlimatı normativ akt olaraq hüquqi sənəd hesab edilir və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin normaları ilə uyğunlaşdırılır. Vəzifə təlimatının tərtib edilməsində mühüm cəhət onun əmək müqaviləsi ilə qarşılıqlı münasibətidir. Belə ki, əmək müqaviləsində də işçinin əmək funksiyası, onun hüquqları və öhdəlikləri qeyd edilir, lakin əmək müqaviləsi vəzifə təlimatına nisbətən ümumi xarakter daşıyır və vəzifə təlimatı idarə rəhbəri tərəfindən, əmək müqaviləsi isə hər iki tərəfin razılığı ilə dəyişdirilə bilər. Ona görə də, əmək müqaviləsi bağlanarkən bir qayda olaraq vəzifə qeyd olunur, onun funksiyaları isə açılmır.

Hər bir vəzifə üzrə təlimat, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təsdiq olunmuş ixtisas xüsusiyyətləri əsasında tərtib edilir. Bu təlimat "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının 2-ci hissəsinin 4-cü abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 17 noyabr 2011-ci ildə7 təsdiq etdiyi "Mədəni-maarif, turizm müəssisələrində olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın təsdiqi barədə (bundan sonra VTİSK adlandırılacaq) № 3-1 qərarı ilə hazırlanmışdır. (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 10 iyun 2013-cü il tarixli qərarı ilə VTİSK-ə dəyişikliklər edilmişdir.) Vəzifə təlimatı idarə rəhbəri və digər məsul şəxslər tərəfindən imzalanır. Təlimat imzalandığı gündən tətbiq edilir və yeni vəzifə təlimatı hazırlanana qədər qüvvədə qalır. Vəzifə təlimatının bir surəti kadrlar şöbəsində, ikinci surəti şöbə müdirində, digər surəti isə işçidə olur (6). Təlimatda baş biblioqraf, böyük biblioqraf, biblioqraf ştatlarının vəzifələri aşağıdakı kimi müəyyənlşdirilmişdir.

Baş biblioqraf aşağıdakıları bilməlidir:

- kitabxana işinə dair sənədləri, mədəni-maarif və turizm müəssisələrinin inkişaf perspektivlərini, bu sahədə qanunvericiliyi, dövlət proqramlarını;
- kitabxananın təsnifat sistemini, fondun düzülüşünü, fond və kataloqdan istifadə qaydalarını;



- kitabxanaşünaslıq nəzəriyyəsini, xarici və ölkədaxili kitab-xanaların qabaqcıl iş təcrübəsini;
- oxuculara biblioqrafik xidmət qaydalarını;
- əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitari-yası və yanğından mühafizə norma və qaydalarını;
- biblioqrafik arayışların, tövsiyə siyahılarının, vəsaitlərin tərtibi metodikasını

Baş biblioqrafın vəzifə borcları:

1. Baş biblioqraf Mərkəzi Kitabxanın bütün şöbə və filiallarında soraq-biblioqrafiya, ölkəşünaslıq (diyarşünaslıq) və informasiya işlərinin təşkilatçısı və rəhbəridir;
2. MKS-in bütün oxucu qruplarını soraq-biblioqrafiya və informasiya xidməti ilə sistemli və operativ surətdə təmin edir;
3. MKS-in vahid soraq-biblioqrafiya aparatını (SBA) təşkil və təbliğ edir;
4. Biblioqrafik fəaliyyət üzrə MKS-in bütün struktur böl-mələrinin fəaliyyətini əlaqələndirir, informasiya və biblioqrafiya xidməti üzrə metodist funksiyasını daşıyır.
5. MKS-in kataloq və kartoteka sisteminin təşkili işlərini yerinə yetirir, mərkəzi kitabxananın şöbələrinə və filial-kitabxa-nalara kartotekaların təşkili üzrə köməklik göstərir;
6. Elektron kataloqa qəzet və jurnal məqalələrini daxil edir, məlumat bazaları üçün materialların toplanmasını həyata keçirir;
7. Bütün sistemin soraq-biblioqrafiya və informasiya işləri-nin planları (rüblük, illik və perspektiv) və onların yerinə yetirilməsinə nəzarət edir;
8. Rayon Mərkəzi Kitabxanasının bütün şöbə və filialları-nın məlumat biblioqrafiya (diyarşünaslıq) və informasiya işlərinin illik, statistik məlumat hesabatlarını təhlil edir və bu haqda hesabat hazırlayır;
9. Başqa şöbələrin işçiləri ilə birlikdə kitabxanaya gələn yeni oxucularla soraq-biblioqrafiya aparatının təbliği, ondan isti-fadə qaydaları haqqında, oxuculara məsləhət vermək və metodiki köməklik göstərmək üçün söhbət aparır;
10. Baş biblioqraf aşağıdakı SBA-nı təşkil edir:
   - -MKS üzrə toplu kataloq;
   - -Diyarşünaslıq ədəbiyyatının tövsiyə kartotekası;
   - -Mövzu kartotekası;
   - -Yerli dövri və ardı davam edən nəşrlərin kartotekası;
   - -Diyar ərazisində çap olunmuş kitabların xronoloji kataloqu;
   - -Soraq və biblioqrafik nəşrlər fondu;
   - -Ödənilmiş arayışlar fondu.
11. Kartoteka təşkil etmək üçün respublika üzrə, eləcə də yerli jurnal və

qəzetləri nəzərdən keçirib biblioqrafik və analitik təsvir edir, kitabxanaya daxil olan yeni kitablarla tanış olur, ölkəşünaslıq (diyarşünaslıq) göstəriciləri tərtib etmək üçün müntəzəm olaraq materiallar toplayır.

Böyük biblioqraf aşağıdakıları bilməlidir:

- kitabxana işinə dair rəsmi sənədləri, mədəni-maarif və turizm müəssisələrinin inkişaf perspektivlərini, bu sahədə qanunvericiliyi, dövlət proqramlarını;
- kitabxanaşünaslıq nəzəriyyəsini, xarici və ölkədaxili kitabxanaların qabaqcıl iş təcrübəsini;
- oxuculara biblioqrafik xidmət qaydalarını;
- fondun tərkibini, kitabların qəbul edilmiş təsnifat sistemini, kataloq və kartoteka sisteminin quruluşunu;
- əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizə norma və qaydalarını.

2. Vəzifə borcları:

1. Uşaqların və yeniyetmələrin hərbi vətənpərvərlik tərbiyəsinin, informasiya və kommunikasiya texnologiyalarının mənimsənilməsi və istifadə olunmasının təbliği üçün kitab təbliğinin təşkili;

2. Şöbənin soraq-biblioqrafiya aparatını təşkil etmək. Uşaq şöbəsinin fondundan istifadə edilməsini genişləndirmək məqsədilə fondun təbliğ edilməsi;

3.Uşaqlara kitabxana-biblioqrafiya və informasiya xidmə tini təşkil etməli, rayon (şəhər) məktəb və uşaq kitabxanaları ilə işi əlaqələndirməli;

4. Mütaliə mədəniyyəti və kitabxana-biblioqrafiya biliklərinin təbliği, uşaq ədəbiyyatının təbliğində informasiya texnologiyalarından (radio, televiziya, mətbuat, internet) istifadə edilməsi;

5. Şöbənin fondunun təşkilində iştirak etmək, fondun komplektləşdirilməsi üçün mövzu-tipologiya planı üzrə təkliflər vermək;

6. MKS-in uşaqlarla iş aparan bütün şöbələrinə metodik rəhbərliyi həyata keçirmək məqsədilə metodik şöbənin işində iştirak etmək;

7. Komplektləşdirmədə buraxılmış nöqsanları aradan qaldırmaq məqsədilə oxuculara verilmiş "yox" cavablarının müntəzəm olaraq təhlil edilməsi və yox cavablarının minimuma endirilməsi.

3.Biblioqraf aşağıdakıları bilməlidir:

- kitabxana işinə dair sənədləri, mədəni-maarif və turizm müəssisələrinin inkişaf perspektivlərini, bu sahədə qanunvericiliyi, dövlət proqramlarını;
- kitabxananın təsnifat sistemini, fondun düzülüşünü, fond və kataloqdan istifadə qaydalarını;
- kitabxanaşünaslıq nəzəriyyəsini, xarici və ölkədaxili kitabxanaların qabaqcıl iş təcrübəsini;
- oxuculara xidmət qaydalarını;



- əməyin mühafizəsi, texniki təhlükəsizlik, istehsalat sanitariyası və yanğından mühafizə norma və qaydalarını.

Biblioqrafın vəzifə borcları:

1. Mərkəzi və ümumi kataloqların təşkili, tərtibi və redaktə edilməsi;

2. Nəşriyyat və kitab satışı biblioqrafiyasına baxış və oradan Mərkəzi Kitabxana və filial kitabxanalar üçün lazım olan nəşrlərin seçilməsi, sifarişlərin dəqiqləşdirilməsi, yoxlanması, ümumiləşdirilməsi, kollektorda ümumi sifarişlərin qeyd olunması və onun icrasına nəzarət edilməsi;

3. MKS-in əməkdaşlarını Milli Kitabxana və digər metodik mərkəzlərdən daxil olan biblioqrafik və metodik nəşrlər haqqında məlumatla təmin etmək;

4. Mərkəzi Kitabxana şöbələrinin və filialların dövri mətbuat sifarişlərini dəqiqləşdirmək, onlara abunə yazdırmaq, rayonun (şəhərin) kitabxanalarında olan dövri mətbuatın vahid ümumi (toplu) kataloqunu təşkil etmək;

5. Komplektləşdirməyə kömək üçün şöbədə məlumat aparatının (cari komplektləşdirmə kartotekası, əlavə komplektləşdirmənin sistemli kartotekası, rayonun (şəhərin) iqtisadi və mədəni profilinin predmet-mövzu kartotekası, MKS-in oxucu kartotekası və s.) təşkili;

6. Filiallara onların fondları üzrə kataloqların tərtibinə və redaktəsinə kömək etmək;

7.Sənədlərin biblioqrafik təsviri üzrə Dövlət standartı əsasında biblioqrafik təsvir, kataloqlar üçün kartoçkaların çoxaldılması;

8. Fondların komplektləşdirilməsi, ədəbiyyatın işlənməsi, kataloqların tərtibi məsələləri üzrə rayonun (şəhərin) və başqa idarə və müəssisələrin kitabxana işçilərinə metodiki köməklik göstərmək. Kitabxanaçıların ixtisas biliyinin artırılmasına yönəldilmiş tədbirlərdə iştirak etmək;

9.Kitabxanaya daxil olan ədəbiyyatın informasiya bülletenlərini, tövsiyə siyahılarını hazırlamaq (6).

Biblioqrafik xidmət iki varianta uyğun qurulur. Birinci variant regionlarda yerləşən kiçik kitabxanalar üçün xarakterikdir. Belə kitabxanalarda adətən bir-iki nəfər kitabxanaçı işləyir. Regionlarda yerləşən kiçik kitabxanalarda adətən, ali təhsili olmayan şəxslər çalışır.

İkinci variantda elmi, universal və xüsusi kitabxanaların funksiya, xarekter və iş səviyyəsindən asılı olmayaraq, elmi-biblioqrafiya, biblioqrafik-informasiya, və ya ölkəşünaslıq biblioqrafiyası şöbələrində çalışan biblioqraflar aiddir. Bu kitabxanalarda biblioqrafik xidmət üçün biblioqrafların ixtisasları xarakterikdir (elm sahələrinə, sənəd növlərinə, funksiyanın yerinə yetirilməsinə, texnoloji proseslərə görə)

Böyük kitabxanaların biblioqraflarının davamlı və peşəkar təhsil və ünsiyyət üçün imkanları vardır. Bu kitabxanalrda iş maraqlı və prestijlidir. Əmək haqqı digər kitabxanalara nisbətən staja və dərəcəyə görədəyişir.

Azərbaycan kitabxanalarında çalışan biblioqrafların 98 %-i qadınlardır. Son onilliklərə nəzər yetirsək biblioqrafiya şöbəsində kişi işçilərinin sayının azaldığınıgörmək olar. 1990-cı illərdən başlayaraq kişi işçilər kitabxananın avtomatlaşdırma şöbəsində işləməyə üstünlük verirlər. Azərbaycan kitabxanalarında çalışan kitabxanaçıların 1318 nəfəri, 15.1% ali-qeyri ixtisas təhsilli kadrlardır ki, onların ikinci ixtisas almaları vacibdir. Çünki xarici ölkələrdə kitabxanalarda işləyən kadrların ali, peşə-ixtisas təhsilinin olmasına ciddi fikir verilir. Hüquq təhsili olsa belə, kitabxanaçılıq təhsiliolmayan insanlar kitabxanada işləyə bilməzlər.

Biblioqrafik fəaliyyətin subyektinə peşəkar biblioqraflar- müəyyən kollektiv (biblioqrafik şöbə, bölmə, idarə, qarşılıqlı biblioqrafik xidmət şöbəsi), qeyri-peşəkarlar - müvəqqəti biblioqrafik fəaliyyətlə məşğul olanlar (alimlər, ali məktəb müəllimləri, yazıçılar, jurnalistəlr və b.) vətələbatçılar daxildir. Peşəkar biblioqraf təcrübi biblioqrafik fəaliyyətin başlıca subyektidir. Biblioqrafik informasiya mənbələrini yaradan, onları tələbatçılara çatdıran, onlardan səmərəli istifadənitəşkil edən məhz peşəkar biblioqraflardır. Müasir tələblərə cavab verən, yüksək səviyyəli biblioqrafik fəaliyyət biblioqrafın nəzəri və təcrübi hazırlıq səviyyəsindən, yeni informasiya texnologiyalarına yiyələnməsindən çox asılıdır.

1990-cı illərdən istifadə olunan texnologiya baxımından biblioqrafik fəaliyyətdə fərqlilik artdı. Kiçik kitabxanaların çoxunda və MKS-lərdə "ənənəçilər" fəaliyyət göstərməyə başladılar ki, onların da yeganə silahı qələm idi (8).

II qrup kitabxanalarda texnikiyeniliklərdən-müasir komrüter avadanlıqlardan istifadə edilir. Biblioqraflar burada informasiya axtarışı ilə, biblioqrafik proseslərlə və onlayn xidmətlə məşğul olurlar. Burada iqtisadi faktor özünü göstərir; ənənəvi kartotekalarlamüqayisədə informasiya bazasının artırılması daha çox əmək tələb edir, lakin ştat isə eyni olaraq qalır. Yaxşı olar ki, biblioqraflar əsas biblioqrafik iş prosesinin metodikasını mənimsəsinlər, əks halda biblioqrafik vəsait tərtibatçıları öz əməklərinin nəticələrinəobyektiv qiymət verə bilməyəcəklər. Başqa sözlə desək, işi elə təşkil etmək lazımdır ki, biblioqraf onun xidmətindən yararlanan ifadəçini həmişə "görə" bilsin. Bir çox kitabxanalarda bu ziddiyyətin mövcudluğu biblioqrafların korporotiv informasiya bazasının hazırlanmasında iştirakı ilə izah edilir (8).

Biblioqrafın peşə psixologiyası, bilik, bacarıq və vərdişlərə yiyələnməsi onun peşəkarlığını müəyyənləşdirən əsas amildir. Biblioqrafın psixoloji keyfiyyəti dedikdə onda peşə yaddaşının inkişafı, biblioqrafik əlamətləri (sənədlərin adlarını, müəllifləri, müxtəlif elm, ədəbiyyat və incəsənət xadimlərini, kitab tarixinə dair məlumatları) məqsədyönlü xatırlamaq qabiliyyəti, sənədlər sayəsində onu əhatə edən aləmi müşayiət etmək, xarici həqiqətlər, adamlar və sənədlər arasındakı ən müxtəlif əlaqələri vaxtında sezmək bacarığı nəzərdə tutulur.



Bu ümumi keyfiyyətlər peşəkar biblioqrafik fəaliyyətdə funksiyalara görə aparılan ixtisaslaşma ilə bağlı səciyyəvi tələblərlə tamamlanmalıdır. Məsələn, sənədlərin biblioqrafiyalaşdırılması ilə məşğul olan biblioqraf sakit oturub işləməyi, fikrini məqsədyönlü cəmləşdirməyi, məntiq təfəkkürünü inkişaf etdirməyi bacarmalıdır.

Biblioqrafik xidmət göstərən biblioqraf pedaqoji və psixoloji baxımdan hazırlıqlı olmalı, insanlarla davranışda mədənisəviyyəsi yüksək olmalı, biblioqrafikaxtarış zamanı qısa vaxt ərzində qərara gəlmək, müxtəlif və mürəkkəb xarakterli sorğuların qeyri-bərabər axını şəraitində səriştəli fəallıq göstərmək, informasiya tələbatçıları ilə münasibətdə emosional sabitliyi gözləmək və həddən artıq ehtiyatlı olmağı bacarmaq əsas məsələdir (2, .s.61).

Profesor Z.Əliyevin "Ümumi biblioqrafiyaşünaslıq" dərs vəsaitinə əsasən biblioqrafın biliyi iki əsas hissədən ibarətdir: a)sosial; b)peşə bilikləri.

Biblioqrafın sosial biliklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Fəlsəfi-metodoloji, siyasi və tarixi biliklər. Burada sosial-siyasi həyatın inkişaf qanunlarını Azərbaycan dövlətinin beynəlxalq siyasətini bilmək xüsusilə vacibdir.

2.İnformasiya tələbatının öyrənilməsinin, təmin edilməsinin və formalaşmasının, biblioqrafın biblioqrafik informasiya tələbatçıları ilə davranışı proseslərinin öyrənilməsində ümumi əsas kimi götürülən psixoloji-pedaqoji biliklər.

3.Böyük sənəd kütləsi və axını ilə, müxtəlif illərdəki işarə sistemləri ilə, əlifbalarla, ədəbiyyatla, ayrıc işarələri və başqaları ilə aparılan biblioqrafik işdə əhəmiyyətli olan peşəyönümlü riyazi, semantik və linqvistika bilikləri (2, s.61).

Biblioqrafın peşə bilikləri isə bunları əhatə etməlidir:

1.Biblioqrafik fəaliyyətin nəzəriyyəsi və tarixi biblioqrafın peşə biliyinin əsasıdır.

2.Ümumi elmi əsaslı(nəzəri və tarixi) peşə bilikləri və onların əməli biblioqrafik fəaliyyətdə tətbiqini təmin etmək zəminində öyrənilən təcrübitətbiqi xarakterli metodiki və texnoloji, mənbəşünaslıq, təşkilati – idarəetmə istiqamətli biblioqrafik biliklər;

3. Qarışıq elmi və təcrübi fəaliyyət sahələrindən, hər şeydən əvvəl, informatika və elmi-informasiya fəaliyyətindən, biblioqrafik xidmətin idarə mənsubiyyətindən asılı olaraq kitabşünaslıq və kitabçılıq(redaksiya – nəşriyyat) işindən, kitabxanaşünaslıq və kitabxana işindən, bibliopolistika və kitab ticarəti fəaliyyətindən, arxivşünaslıq və arxiv işindən və s. götürülən və biblioqraf peşəsi üçün əhəmiyyətli olan biliklər;

4.Biblioqrafın təcrübi fəaliyyəti nəticəsində yaddaşında qalan seriyalı, çoxcildli, ensiklopedik və başqa mühüm nəşrlərin, jurnal və qəzetlərin adları, elmi müəssisələr, mühüm sənəd fondlarının tərkibi, müxtəlif kitabxanaların,

elmi-texniki informasiya orqanlarının soraq-biblioqrafiya aparatlarının (SBA) quruluşu haqqındakı məlumatlarla bağlı faktoqrafik biliklər;

5.Sahəvi biblioqrafik fəaliyyətlə məşğul olanlar xidmət etdikləri bilik sahələrinin problemlərini, inkişaf perspektivlərini, terminologiyasını, sahə ilə əlaqədar ədəbiyyatın (əsas əsərlərin, dövri nəşrlərin) biblioqrafik axtarışında əhəmiyyətli olan mənbələri bilməlidirlər.

Biblioqrafın peşə bacarığı da mühüm şərtdir.Belə bacarıq biblioqrafda olan biliyin təcrübi fəaliyyətdə tətbiqi ilə təmin olunur.Peşə bacarığı bir qayda olaraq iki yerə bölünür: məcburi və arzu olunan bacarıq.

Məcburi bacarıq öz növbəsində ümumi(bütün biblioqraflar üçün zəruri hesab edilən) və əlavə (ixtisaslaşmadan asılı olan) hissələrə ayrılır.Bunlardan ən vaciblərini qeyd edək:

a) bütün biblioqraflar ixtisaslaşmalarından asılı olmayaraq bacarmalıdırlar:

-biblioqrafik yazılar tərtib etməyi və oxumağı(onlardan lazım olan informasiyanı götürməyi);

-biblioqrafik axtarış aparmağı, məlumat və biblioqrafik nəşrlərdən, kartoçka kataloqlarınlan, kartotekalarından və axtarışın başqa mənbələrindən istifadə etməyi;

-biblioqrafik vəsait tərtib etməyi (sənədləri meydana çıxarmağı, seçməyi, qruplaşdırmağı, annotasiyalaşdırmağı);

-avtomatlaşdırılmış məlumat-axtarış sistemindən (EHM və kompüter zəminində yaradılanlar da daxil olmaqla) və müasir surətçoxaldıcı texnikadan istifadə etməyi;

- biblioqrafik xidmət sahəsində öz işini planlaşdırmağı, həyata keçirməyi və təhlil etməyi;

b)biblioqrafiyalaşdırma ilə məşğul olan biblioqraf əlavə olaraq bacarmalıdır:

-mövcud təsnifatlardan istfadə etməyi, sənədləri sistemləşdirməyi və predmetləşdirməyi;

-biblioqrafik vəsaitləri redaktə etməyi;

- biblioqrafik vəsaitin tərtibi prospektini və ya proqramını işləyib hazırlamağı;

c) biblioqrafik xidməti həyata keçirən əlavə olaraq bunları da bacarmalıdır:

-biblioqrafik informasiya tələbatçıları ilə davranmağı, onlarda biblioqrafik özünəxidmət səriştəsi tərbiyə etməyi;

- sorğuları qəbul etməyi, biblioqrafik arayışlar hazırlayıb verməyi;

-informasiya tələbatçılarına kütləvi və fərqli (diferensasiyalı) biblioqrafik informasiya verməyi təşkil etməyi və həyata keçirməyi.

Bütün biblioqraflar üçün arzu olunan bacarıq:



-kütlə qarşısında çıxış etmək, biblioqrafik biliyi yaymaq;

- latın və kiril əlifbaları ilə, müxtəlif xalqların dillərində olan biblioqrafik təsvirlərdən baş çıxarmaq;

-elmi-tədqiqat və elmi-metodiki iş aparmaq;

-kompüterlə işləmək.

Biblioqrafın vərdişi onun fəaliyyəti zamanı ardıcıl təkrar olunması sayəsində avtomatik hal olan və xüsusi şüurlu nəzarət tələb etməyən bir cəhətdir. Vərdişə aşağıdakılar aiddir:

-sürətli biblioqrafik oxu, yəni sənədlərdə standart üsullardan və lazımi fraqmentin(sitatlar, adların, biblioqrafik qeydin və s.) axtarışı məqsədilə mətnin sürətlə nəzərdən keçirilməsi yollarından istifadə olunmaqla ardıcıl həyata keçirilən ümumi tanışlıq;

-sözlərin və söz birləşmələrinin mətnin mənası təhrif olunmamaq şərtilə ixtisar olunmaları sayəsində sürətlə yazmaq vərdişi;

-məlumat nəşrləri, biblioqrafik vəsaitlər və kitabxanaların SBA-ları üzrə istiqamətlənmək və operativ axtarış aparmaq vərdişi;

-biblioqrafik əlamətləri standartlar üzrə əks etdirmək və bununla da biblioqrafik qeydin sənədə təkrar müraciət etmədən daha dəqiq formalaşmasına nail olmaq vərdişi.

Vərdişlər də bacarıq kimi bütün biblioqraflar üçün ümumi və əlavə ola bilər.Əlavə vərdişlər biblioqrafın funksiya və ya sahəvi ixtisası çərçivəsində yerinə yetirdiyi peşə vəzifəsinin xüsusiyyətinə uyğun gəlmələri ilə fərqlənir. Biblioqraf ona gələn sorğuya cavab verməklə yanaşı, həm də onu dürüstləşdirməyə, oxucunun marağına nə dərəcədə uyğun gəldiyini dəqiqləşdirməyə, onların məzmununa və quruluşuna biblioqrafik vasitələrlə təsir göstərməyə çalışmalı və nəhayət oxucularda sənəd tələbatını məqsədyönlü inkişaf etdirməyi və formalaşdırmağı bacarmalıdır (2, s.64)

Nəticə. Yuxarıda qeyd olunana yekun vuraraq, kitabxanaçı-biblioqraf peşəsinin qarşısınaqoyulan tələbləribelə müəyyənləşdirmək olar.

1. Öyrənmə qabiliyyəti
2. Universallıq
3. Mobillik
4. Vəziyyəti qiymətləndirmək bacarığı və doğru qərar qəbul etmək qabiliyyəti.
5. Kreativlik -yaradıcılıq
6. Adekvatlıq (7).

Kitabxana-biblioqrafiyaişini yaxşı bilən əməkdaşlar bizdəazlıq təşkil edir. Təhsilindənasılı olmayaraq, əgər insan kitabxana-biblioqrafiyaişini öyrənməyə çalışırsa biz belə insanlara dəstək göstərməliyik. Çünki kitabxana işi humanist bir sahədir. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununun 26-cı maddəsində deyilir ki, Kitabxanada ali ixtisas təhsilli

kitabxanaçılar işləyə bilərlər. Müstəsna hallarda, kitabxana işini sevən, onu yaxşı bilən insanlar da kitabxanada işləyə bilərlər (1.s.15).

## ƏDƏBİYYAT


1."Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal, 1999, №1, s.3-16.

2.Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq:Dərs vəsaiti.-Bakı:Bakı Universiteti Nəşriyyatı, 2001.-143 s.

3. Xələfov A.A. Müasir şəraitdə Azərbaycanda kitabxana quruculuğu nəzəriyyə və təcrübəsinin elmi əsasları // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 1997, №1, s.18-26.

4.İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi: Dərslik. -Bakı: Nurlar, 2009, 392 s.

5."Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. -Bakı, 2009.-86 s.

6."Mərkəzləşdirilmiş Kitabxana Sistemi işçilərinin vəzifə təlimatı" http: anl.az

7.О профессиональной компетенции библиотекаряhttp://library.mephi.ru/blog/?p=193

8. Справочник библиографа/ науч. ред.: Г.Ф.Гордукалова, Г.В.Михеева.—4-е изд. Испр. И дор.- Санкт-Петервург: Профессия, 2014.-768 с



Х.Т.Агаева


## ПРОФЕССИОНАЛЬНЫЕ КОМПЕТЕНЦИИ БИБЛИОТЕКАРЯ-БИБЛИОГРАФА

### РЕЗЮМЕ


В статье предоставлена информация о профессиональных компетенцийпрофессии библиотекаря-библиографа и учителя которые занимаются обучением профессиональных кадров библиотекарь-библиографов, знаний и навыков профессиональных библиографов, а также социальные и профессиональные требования дляпрофессии библиотекаря-библиографа.



Kh.T.Aghayeva


## PROFESSİONAL COMPETENCE OF THE LİBRARİAN-BİBLİOGRAPHER

### SUMMARY


The article provides information about the professional competencies of the profession librarian, bibliographer and teachers who are engaged in the training of professional staff librarians, knowledge and skills of professional bibliographers and social and professional requirements for the profession of librarian-bibliographer.